*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 5 sentyabr 2018-ci il | № 68 (2284) | Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan ilə Rusiya arasında tamdəyərli tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətləri var

*Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfərə gedib. Səfər çərçivəsində Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.*



Geniş tərkibdə görüş və işçi nahar başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə sənədlərin imzalanması mərasimi keçirilib.

Sənədlərin imzalanması mərasimi başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

Dünyanın diqqət mərkəzində olan görüş regionun geostrateji perspektivini formalaşdırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda Rusiya-Azərbaycan münasibətləri ölkələrimizin iqtisadi, siyasi, təhlükəsizlik maraqlarını təmin edir. Bir çox siyasi ekspertlər də bu görüşü ikitərəfli münasibətlərdə yeni keyfiyyət mərhələsi adlandırır.

Qeyd etmək lazımdır ki, siyasi arenada çox mühüm tarixi hadisələr baş verir. Bu hadisələr dövlətlərin milli maraqlarının və təhlükəsizliyinin təmin olunması üçün yeni şərtlər irəli sürür. Ona görə də Azərbaycan və Rusiya prezidentlərinin görüşü həm yeni iqtisadi şərtlərin, həm də yeni siyasi-humanitar şərtlərin formalaşması baxımından olduqca əhəmiyyətlidir.

Rusiya-Azərbaycan münasibətləri həm ikitərəfli münasibətlər kontekstində, həm də bütövlükdə regionun gələcəyi kontekstində qiymətləndirilir. Bu münasibətlər həm də üçtərəfli və dördtərəfli formatlarda münasibətlərə də yol açır. Belə ki, Rusiya-Türkiyə-Azərbaycan münasibətləri, Rusiya-Azərbaycan-İran münasibətləri kimi xarakterizə etdiyimiz üçtərəfli diplomatik müstəvilər daxilində yeni tərəfdaşlıq imkanları açır.

Görüşdə iqtisadi münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, birgə müəssisələrin yaradılması, Rusiya Federasiyası regionları və Azərbaycan arasında olan münasibətlərin daha da inkişaf etdirilməsi, o cümlədən Xəzərin yurisdiksiyasını tənzimləyən yeni konvensiya imzalandıqdan sonra yeni statusda Xəzərin iqtisadi potensialının, yeni kommunikasiya vasitələrinin və karbohidrogen ehtiyatlarının istismarının yenidən qiymətləndirilməsi kimi məsələlər müzakirə olundu. Prezidentlərin Soçi görüşünün yekunlarına dair bir çox mühüm hökumətlərarası, müəssisələrarası sənədlər də imzalandı. Rusiya Prezidenti Vladimir Putin iqtisadi əlaqələrin əhəmiyyətini xüsusilə qeyd etdi: "Ölkələr arasında iqtisadi əlaqələr intensiv inkişaf edir. Ötən il əmtəə dövriyyəsi təxminən 35 faiz artaraq 2 milyard dollara çatıb. Danışıqların yekunlarına dair iqtisadi əməkdaşlığın müxtəlif sahələrinə aid təsdiqlənmiş 5 "yol xəritə"si əmtəə dövriyyəsini daha da artırmağa, inteqrasiya əlaqələrini intensivləşdirməyə imkan verəcək."

Bundan başqa, bilirik ki, bütün görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi Rusiya-Azərbaycan münasibətlərində prioritet təşkil edir. Bu baxımdan problemin həlli ilə bağlı dövlət başçıları arasında müzakirələr aparıldı. Ona görə də Azərbaycan Prezidenti mətbuata verdiyi bəyanatda bu məsələni xüsusi vurğuladı: "Qeyd etmək istərdim ki, bizim müzakirə etdiyimiz məsələlər arasında regional təhlükəsizlik məsələləri, ilk növbədə, uzun müddət davam edən və Azərbaycan xalqının böyük iztirablarına gətirib çıxarmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi mühüm yer tutur. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış əraziləri erməni işğalı altındadır. Bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Münaqişənin tezliklə həlli bizim vətəndaşlarımızın öz tarixi torpaqlarına qayıtmalarına imkan verər, həmçinin bizim regiona sülh, sabitlik və əməkdaşlıq gətirər. Rusiya, münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk Qrupunun həmsədri kimi tənzimləmə işində mühüm rol oynayır. Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur. Biz ümid edirik ki, münaqişənin nizamlanmasında Rusiyanın səyləri davam edəcək".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fikir bildirən Rusiya Prezidenti Vladimir Putin ölkəsinin ATƏT-in Minsk Qrupu çərçivəsində münaqişənin həllinə hərtərəfli kömək göstərəcəyini bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında hərbi-texniki əməkdaşlıq məsələlərinə də toxundu: "Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici artmağa meyillidir. Ona görə ki, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsini davam etdirir, Rusiya isə dünyada hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla təchizatçısıdır".

Bütövlükdə onu qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri, hər iki ölkənin prezidentləri arasında baş tutan görüş və aparılan müzakirələr regionumuz və strateji müttəfiq olduğumuz digər ölkələrin mənafeyi və yeni əməkdaşlığın yaranması imkanları baxımından olduqca əhəmiyyətlidir.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşü keçirilib

*Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərindəki Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşü keçirilib.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış edib.*



- Hörmətli Sooronbay Şərifoviç.

Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

İlk növbədə, Sooronbay Şərifoviç, göstərilən qonaqpərvərliyə görə və Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyiniz üçün Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Qırğızıstan torpağında olmağımdan çox məmnunam. Eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına uğurla sədrlik edən Qazaxıstan tərəfinə də öz minnətdarlığımı bildirirəm. Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır. Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır.

Regional təhlükəsizlik məsələləri xüsusi əhəmiyyət daşıyır. Çünki indiki dünyada yeni risklər, təhdidlər yaranır, yeni münaqişə, müharibə ocaqları alovlanır. Azərbaycan uzun illərdir ki, Ermənistanın işğalından əziyyət çəkir. İyirmi ildən çoxdur ki, beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt olunmuş, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, hərbi cinayətlər, Xocalı soyqırımı törədilmişdir. Bu gün 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyır. Bir gecədə 600-dən çox günahsız insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir, mindən çox insan itkin düşüb. Onların taleyi haqqında heç bir məlumat yoxdur. İşğal edilmiş torpaqlarda Ermənistan bizim bütün tarixi, dini abidələrimizi, məscidlərimizi, əcdadlarımızın qəbirlərini dağıdıb, maddi sərvətlərimiz Ermənistan tərəfindən talan edilib. Bu, hərbi cinayətdir və bu cinayəti törədənlər ədalət qarşısında cavab verməlidirlər və verirlər. Təsadüfi deyil ki, 20 il ərzində Ermənistana rəhbərlik etmiş kriminal rejim çökdü və bu gün bizim dediyimizi erməni xalqı deyir. Ümid edirik ki, Ermənistanın yeni rəhbərliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konstruktiv mövqe tutacaq, tezliklə bizim torpaqlarımız işğaldan azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bölgədə sülh və əməkdaşlıq yaranacaqdır.

Onu da qeyd etməliyəm ki, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, BMT Təhlükəsizlik Şurası - dünyanın ən ali orqanı münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması haqqında çox dəqiq müddəalar var və münaqişə əlbəttə ki, bu prinsiplər əsasında öz həllini tapmalıdır. Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti oxşar qərar və qətnamələr qəbul etmişlər. Bu, münaqişənin həlli üçün əsas hüquqi bazadır.

Bugünkü Zirvə görüşünün mövzusu idmanla bağlıdır. Bu barədə də öz fikirlərimi bildirmək istərdim. Azərbaycanda idmana çox böyük diqqət göstərilir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətidir. Ölkəmizdə bir neçə mötəbər beynəlxalq yarış keçirilmişdir. Onların arasında xüsusilə I Avropa Oyunlarını qeyd etmək istərdim. Digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunları heç vaxt keçirilməmişdi. İlk dəfə olaraq üç il bundan əvvəl Bakıda Oyunlar keçirildi. Bu Oyunlarda Avropanın bütün ölkələrini təmsil edən 5 mindən çox idmançı iştirak etmişdir. Azərbaycan Oyunlarda yüksək idman nəticələri göstərmişdir və komanda hesabında ikinci yerə layiq görülmüşdür. Ondan iki il sonra, yəni ötən il Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu Oyunlarda Azərbaycan idmançıları birinci yerə layiq görülmüşlər. İki il ərzində bir şəhərdə həm Avropa, həm İslam Oyunlarının keçirilməsi Azərbaycanın millətlərarası, dinlərarası multikulturalizmə verdiyi töhfənin növbəti təzahürü olmuşdur. Azərbaycan idmançıları Olimpiya Oyunlarında da yaxşı nəticələr göstərirlər. Son Yay Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan 14-cü yerdə qərarlaşmışdır və bu, bizim ölkəmiz üçün tarixi nailiyyətdir.

İdman insanları, xalqları birləşdirir. Əminəm ki, idmanın inkişafı həm ölkələrimizin ümumi inkişafına töhfə verəcək, eyni zamanda, bizim əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir.

Humanitar məsələlərə gəldikdə, xüsusilə TÜRKSOY-un və Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndirmək istərdim. Azərbaycan hər iki təşkilatda fəal iştirak edir.

Mən diqqətinizi iqtisadi əməkdaşlığa cəlb etmək istərdim. Xüsusilə indiki şəraitdə biz iqtisadi əməkdaşlığı dərinləşdirməliyik. Xüsusilə aramızdakı ticarət dövriyyəsinin artırılması üçün əlavə addımlar atılmalıdır və burada hesab edirəm ki, investisiya layihələri xüsusi rol oynayır. Qarşılıqlı investisiya qoyuluşunu təşviq etmək üçün yeni mexanizmlər işlənməlidir.

Azərbaycan qardaş ölkələrə böyük investisiyalar qoyur, ilk növbədə, Türkiyəyə. Son illərdə Türkiyə iqtisadiyyatına 14 milyard dollar sərmayə qoyulub və Türkiyə də Azərbaycana təxminən bu qədər sərmayə qoyub. Bizim Türkiyəyə sərmayələrimizin həcmi yaxın illərdə 20 milyard dollara çatacaq. Bu, bizim dostluğumuzu, qardaşlığımızı əks etdirir, eyni zamanda, Türkiyənin çox böyük iqtisadi potensialını göstərir. Əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilib, "Böyük iyirmilər"in aparıcı ölkələrindən biridir. Biz çox sevinirik ki, Türkiyə bütün sınaqlardan şərəflə çıxır, o cümlədən iqtisadi sınaqlardan. Biz hər zaman bir-birimizin yanındayıq və bunun ən gözəl göstəricisi, yenə də deyirəm, bizim qarşılıqlı sərmayəmizdir. Türkiyədə çox gözəl investisiya iqlimi, biznes üçün çox gözəl şərait var və biz Azərbaycan olaraq bundan sonra da qardaş ölkəyə sərmayə qoyuluşunu davam etdirəcəyik.

Bütövlükdə biz qardaş ölkələrə investisiyaların qoyuluşu ilə həm öz iqtisadi maraqlarımızı təmin edirik, həm də ki, bu ölkələrdə yeni imkanlar yaradırıq. Azərbaycan da qardaş ölkələrdən investisiyaları qəbul etmək üçün bütün işləri görüb. Azərbaycanda da gözəl sərmayə iqlimi var və qarşılıqlı sərmayə qoyuluşu bizim birliyimizi daha da möhkəmləndirəcək. Xüsusilə nəzərə alsaq ki, keçən ilin oktyabr ayından Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng infrastruktur layihəsi fəaliyyətdədir. Bu yol Asiyanı Avropa ilə birləşdirir və bu yolla yükdaşımalarının həcmi artır və artmalıdır. Bu, yeni nəqliyyat dəhlizidir, yeni nəqliyyat damarıdır. Azərbaycan dost, qonşu ölkələrlə birlikdə bu layihənin icrası ilə Avrasiyanın enerji xəritəsini yenidən tərtib etmiş olur. Nəzərə alsaq ki, nəqliyyat baxımından bu, çox əlverişli yoldur, mən bütün dost ölkələri bu yoldan istifadə etməyə çağırıram, o cümlədən Avropa ölkələrini, Macarıstanı, Özbəkistanı, Qırğızıstanı. Artıq Qazaxıstan, Türkiyə, Azərbaycan bu yoldan istifadə edir.

Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, bugünkü Zirvə görüşünün çox böyük mənası var, çox gözəl nəticələri olacaq. Əsas nəticə də ondan ibarətdir ki, bizim dostluğumuz, qardaşlığımız daha da möhkəmlənəcək.

Təşəkkür edirəm.

**AZƏRTAC-ın materialları əsasında**

# "TURAZ Şahini-2018" birgə taktiki-uçuş təlimləri başlayıb



*Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq haqqında plana əsasən, Konya şəhərində iki ölkənin Hərbi Hava Qüvvələrinin cəlb olunduğu birgə taktiki-uçuş təlimləri başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, keçirilən təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə, iki ölkənin Hərbi Hava Qüvvələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Təlimlərdə iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin 2 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum təyyarələri və şəxsi heyət Konya şəhərində yerləşən aviabazada təntənəli şəkildə qarşılanıb.

Qarşılama mərasimində çıxış edənlər keçirilən birgə taktiki-uçuş təlimlərində iştirak edən hər kəsə uğurlar arzulayıb və qurban kəsilib.

Təlimlər sentyabrın 14-dək davam edəcək.



# Müdafiə naziri Türkiyənin hərbi attaşesi ilə görüşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Silahlı Qüvvələrinin ölkəmizdə fəaliyyət müddəti başa çatan hərbi attaşesi briqada generalı Zafer Ocak ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə olunub, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin region üçün vacibliyi qeyd edilib, həmçinin ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Müdafiə naziri Azərbaycanda fəaliyyət müddətində ölkələrimiz arasında hərbi əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərinə görə hərbi attaşeyə təşəkkürünü bildirib və ona gələcək xidmətlərində uğurlar arzulayıb.

Səmimi görüşə görə minnətdarlığını bildirən hərbi attaşe briqada generalı Z.Ocak ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin, xalqının və Silahlı Qüvvələrinin daim səmimi dostu olaraq qalacağını vurğulayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Sentyabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il sentyabrın 1-dək 93.412.236,19 AZN, 213.577,88 ABŞ dolları, 12436,0 avro və 5000,0 rubl vəsait daxil olub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 sentyabr 2018-ci il.*** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 73 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu, Qaralar kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə naziri: “Fəaliyyətimizin əsas məqsədi ərazilərimizin işğaldan azad edilməsinə hazırlıqdır”

*Sentyabrın 1-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər vəzifəli şəxslər cəlb olunub.

Ali Baş Komandan İlham Əliyevin ordumuz qarşısında qoyduğu tapşırıqları bir daha müşavirə iştirakçılarının diqqətinə çatdıran Müdafiə naziri xüsusi olaraq vurğulayıb ki, ordu quruculuğu istiqamətində görülən işlərin, həyata keçirilən tədbirlərin və ümumilikdə bütün fəaliyyətimizin əsas məqsədi ərazilərimizin işğaldan azad edilməsinə hazırlıqdır.

Qoşunlarda aparılan intensiv döyüş hazırlığı, gündəlik fəaliyyət və döyüş işinin təşkili, xidməti və döyüş fəaliyyətinin hərtərəfli təminatı, əməliyyat hazırlığı tədbirlərinin planlaşdırılması, həmçinin cəbhə bölgəsində yerləşən və qoşunların digər dislokasiya yerlərindəki cari vəziyyəti təhlil edən Müdafiə naziri müvafiq göstərişlər verib.



Eyni zamanda general-polkovnik Zakir Həsənov müxtəlif səviyyəli təlimlərin, planda nəzərdə tutulan digər vacib tədbirlərin təşkili və keçirilməsi, o cümlədən şəxsi heyətin, maddi-texniki vasitələrin, xüsusilə dağlıq ərazilərdə yerləşən postların və mövqelərin qış mövsümünə hazırlığının aparılması ilə bağlı tapşırıqları da müəyyən edib.

# Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası Dağlıq Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün fəaliyyətini gücləndirib

*Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası Dağlıq Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün fəaliyyətini gücləndirib.*

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar bildirib. O qeyd edib ki, Türkiyənin Kocaeli şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Mədəniyyət Mərkəzində ermənilərin tarixboyu azərbaycanlılara qarşı törətdiyi terroru əks etdirən muzey fəaliyyət göstərir. Bolqarıstan, Macarıstan və Almaniya televiziyaları erməni terrorunun dünyaya çatdırılması üçün Heydər Əliyev adına Mədəniyyət Mərkəzində fəaliyyət göstərən muzeydə sənədli film hazırlayıb. Federasiya sədri əlavə edib ki, Türkiyə vətəndaşlarına və xarici qonaqlara hadisələri tam ətraflı çatdırmaq üçün Heydər Əliyev adına Mədəniyyət Mərkəzindəki kitabxananın və muzeyin daha da zənginləşdirilməsi istiqamətində bir sıra addımlar atılır. Əksər insanlar ermənilərin törətdikləri terror aktları ilə bağlı faktlarla ilk dəfə bu mərkəzdəki sənədlər əsasında tanış olublar.

Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri bununla yanaşı, rəhbərlik etdiyi qurumun həyata keçirdiyi sosial layihələrlə bağlı da məlumat verib. Onun sözlərinə görə, federasiyanın vasitəçiliyi ilə Kocaeli valiliyi bu şəhərdəki ali məktəbdə təhsil alan 200-ə yaxın azərbaycanlı tələbəyə birdəfəlik tələbə təqaüdü verib. Bundan başqa Kocaeli şəhər bələdiyyəsi və Türk Dünyası Bələdiyyələri Birliyinin sədri İbrahim Karaosmanoğlunun qərarı ilə azərbaycanlı tələbələrin bələdiyyəyə məxsus ictimai nəqliyyat vasitələrindən pulsuz istifadə etmələrinə imkan yaradılıb.

Həmçinin Bilal Dündar qeyd edib ki, oktyabr ayında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının da iştirakı ilə Kocaeli vilayətinin Körfəz bələdiyyəsinin sədri İsmayıl Baran başda olmaqla böyük nümayəndə heyəti Azərbaycana, Göyçay rayonuna səfər edəcək. Bu rayonda Körfəz istirahət parkının açılacağı gözlənilir.

# Türkiyəli qonaqlar "N" hərbi hissəsində oldular

*Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının Protokolunun müddəalarına əsasən, Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının İnspeksiya və Qiymətləndirmə Baş İdarəsinin rəisi briqada generalı Faruk Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində "N" hərbi hissəsində oldu.*



Qonaqlar əvvəlcə hərbi hissənin ərazisində ucaldılmış ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyaraq, öz ehtiramlarını ifadə etdilər. Hərbi hissənin qərargahının foyesində ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində gördüyü işləri özündə əks etdirən foto-stendə baxdılar. Briqada generalı Faruk Yıldırım şərəf otağında xatirə kitabına ürək sözlərini yazdı.

Görüşdə qonaqlara hərbi hissənin yaranma tarixi, şəxsi heyətin döyüş və xidməti vəzifələrini yerinə yetirməsi üçün yaradılan şərait, ümumi maraq kəsb edən digər məsələlər barədə məlumat verildi.

Tərəflər əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi apardılar, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi imkanlarını müzakirə etdilər.

Müdafiə Nazirliyi Baş Hərbi İnspeksiyasının rəisi general-mayor Zakir Ağayev əvvəlcə qonaqları səmimiyyətlə salamladı və onları ölkəmizdə görməkdən məmnunluğunu ifadə etdi. Nümayəndə heyətini "Zəfər bayramı" münasibəti ilə təbrik etdi. Belə səfərlərin sarsılmaz dostluğun və qardaşlığın göstəricisi olduğunu dedi. Dostluq və əməkdaşlığın genişlənməsinə yeni töhfələr verəcəyini bildirdi. Müvafiq sahədə təcrübə və qarşılıqlı faydalı fikir mübadiləsinin, təkliflərin öyrənilməsi baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırdı.

Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının İnspeksiya və Qiymətləndirmə Baş İdarəsinin rəisi briqada generalı Faruk Yıldırım Azərbaycanda olmaqlarından şərəf duyduqlarını bildirdi. Vurğuladı ki, Azərbaycan Ordusu gündən-günə inkişaf edir, gücünü, qüdrətini artırır. "Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz dayaqları var. Bu qardaşlığın hazırkı nöqtəyə çatmasında ümummilli lider Heydər Əliyevin sonsuz töhfəsi var. Bizlər daim Azərbaycanda hərbi sahədə olan quruculuq proseslərini, qazanılan uğurları yaxından izləyirik. Ölkənizdə ordu quruculuğuna hər zaman böyük önəm verilir. Maddi-texniki bazanın əhəmiyyətli dərəcədə möhkəmləndirilməsi ilə bərabər, hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində də mühüm addımlar atılır. Bir sözlə, Azərbaycan Ordusu dünya standartlarına uyğun şəkildə inkişaf edir və regionun ən güclü ordularından biridir. Hərbi hissə ilə tanışlıq zamanı da gördüklərimiz bizi heyrətləndirdi. Buradakı səliqə-sahman, təmizlik insanı razı salır. Çox gözəl şəraitiniz var. İftixar hissi ilə deyirəm ki, biz bu uğurlu prosesə ürəkdən sevinirik və "Bir millət, iki dövlət" olaraq daim Azərbaycanın yanındayıq."

Nümayəndə heyəti hərbi hissədə infrastruktur, inzibati, xidməti binalar və qurğularla, əyani tanış oldular. Kompüterli artilleriya sinfində şərti "düşmən" hədəfinin müəyyənləşdirilərək dəqiq atəş zərbələri ilə məhv edilməsini izlədilər. Əsgər yeməkxanasında birgə nahar etdilər. Sonda tərəflər bir-birinə xatirə hədiyyələri təqdim etdilər.

**Leytenant
Samir HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçuların xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir

*Azərbaycan Ordusunda əsaslı təmir-tikinti və yenidənqurma işlərinin aparılması ilə bağlı plana əsasən hərbi hissələrdən birində yeni inşa edilən qarovul binasının açılışı olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, açılışda çıxış edən Maddi-Texniki Təminat Baş İdarəsi rəisinin müavini - MTT qərargahının rəisi polkovnik Qədir Nəsibov bildirib ki, qarovul binası qısa müddət ərzində müasir standartlara uyğun inşa olunub. Burada qarovul xidmətinin yüksək səviyyədə təşkil olunması və aparılması üçün hərtərəfli şərait yaradılıb. Təyinatına uyğun olaraq zəruri inventar və avadanlıqla təmin edilən mətbəx, yeməkxana, istirahət otağı, paltar qurutma yeri, eləcə də təhlükəsizlik qaydaları tələblərinə cavab verən silah-sursat saxlancı da hərbi qulluqçuların istifadəsinə verilib.



Binaya istilik sistemi, isti və soyuq su çəkilib, siqnalizasiya və yanğın əleyhinə sistemlər quraşdırılıb.

Ərazi hər tərəfdən metal çərçivə ilə əhatə olunub, abadlıq və quruculuq tədbirləri görülüb, asfalt örtüyü döşənib və yaşıllıq sahəsi salınıb.

# Azərbaycan hava hücumundan müdafiə qoşunlarının taktiki-xüsusi məşğələləri keçirilir

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2018-ci ilin döyüş hazırlığı planına uyğun olaraq hava hücumundan müdafiə qoşunlarının taktiki-xüsusi məşğələləri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşğələlər zamanı S-300 "Favorit" zenit-raket komplekslərinin divizionları mövqe rayonlarına marş edərək start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını icra edirlər.



Raket bölmələri vacib obyektlərin hava hücumundan mühafizəsi, habelə şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqları da yerinə yetirirlər.

# "Rusiya ilə Azərbaycan arasında sarsılmaz münasibətlər bütün regionda təhlükəsizliyin əsasıdır"

Sentyabrın 1-də Soçidə Rusiya və Azərbaycan prezidentlərinin görüşü ölkələrimiz arasında münasibətlərin inkişafında olduqca mühüm mərhələdir. Göz qabağındadır ki, iki dövlətin liderləri arasında şəxsi səmimi dostluq münasibətləri bu proseslərə çox güclü impuls verir.

Bu sözləri Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-a müsahibəsində deyib.

O qeyd edib ki, ölkələrimiz arasında əmtəə mübadiləsinin artması xarici iqtisadi qarşılıqlı əlaqələrin inkişafının böyük potensialını nümayiş etdirir. Bu yaxınlarda Xəzərin hüquqi statusu haqqında qəbul edilmiş Konvensiya birgə müəssisələrin yaradılması, birgə layihələrin icrası üçün yeni imkanlar açıb.

"Siyasi zəmin də çox vacibdir - olduqca mürəkkəb xarici siyasi şəraitdə biləndə ki, böhranlı vəziyyətdə qardaş xalqlar hər zaman çiyin-çiyinə duracaq, onda kollektiv Qərb tərəfdən xarici təzyiqə qarşı müqavimət göstərmək xeyli asan olur. Rusiya ilə Azərbaycan arasında sarsılmaz münasibətlər bütün regionda təhlükəsizliyin əsasıdır. Buna görə də bu məsələ prezidentlərin Soçi görüşündə diqqət mərkəzində idi", - deyə rusiyalı deputat bildirib.

*Ordenli igidlərimiz*

# Dəmir atlı cəngavər

*Sentyabrın 1-də Azərbaycan Bayrağı ordenli Əhməd Möhbalıyevin anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq Şəhidlər xiyabanında mərhumun məzarı önündə anım tədbiri keçirildi. Tədbirdə şəhidin döyüşçü dostları, ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak etdilər.*



Mərasimi giriş sözü ilə açan Əhməd Möhbalıyevin vaxtilə komandiri olmuş ehtiyatda olan kapitan Hacı Əzimov şəhid zabitin qəhrəmanlıqla dolu döyüş yolundan, peşəkarlığından və vətənpərvərliyindən bəhs etdi. O qeyd etdi ki, Əhməd kimi peşəkar zabitlər o zaman yenicə yaranmaqda olan Azərbaycan Ordusunda çox az idi. "Orduda belə zabitlərə ehtiyac vardı. Əhməd daim döyüş meydanına can atırdı. Yoldaşlıqda, dostluqda əvəzsiz bir insan idi. Onun adı daim qəlbimizdə yaşayır. Hər birimiz Əhmədin xatirəsini əziz tutur, burada uyuyan döyüşçü dostlarımızın məzarlarını tez-tez ziyarət edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əhmədin şərəfli zabit ömrü Azərbaycan Ordusunun zabitlərinə və əsgərlərinə hər zaman bir nümunədir."

Sonra mərhumun döyüşçü dostları onunla bağlı cəbhə xatirələrini danışdılar.

Əhməd Möhbalıyev 1968-ci il sentyabrın 1-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Qıvraq kəndində dünyaya göz açmışdı. Doğma yurdu Naxçıvana, Vətəni Azərbaycana bütün varlığı ilə bağlı idi Əhməd. Həmişə deyərmiş ki, Vətəni qoruya bilməsək, yaşamağa haqqımız yoxdur. Bu bizim qeyrət işimizdir. Cəmi 24 il yaşadı Əhməd. Qısa, lakin şərəfli ömrü ilə insanlığın, vətəndaşlığın və igidliyin bariz nümunəsi oldu. Rəşadəti, cəsurluğu, şücaəti ilə özünə əbədi ölməzlik qazandı.

Hələ kiçik yaşlarından ürəyindən hərbçi olmaq, zabit mundiri geyinmək həvəsi keçmişdi Əhmədin. Elə bu arzu, istəklə də əvvəlcə Cəmşid Naxçıvanski adına Bakı İxtisaslaşdırılmış Hərbi Məktəbi, sonra isə Kazan Ali Tank Qoşunları Məktəbini bitirir. Kiyevdə və Moskvada tank qoşunları diviziyasında xidmət edir. Mənfur ermənilər tarixi torpaqlarımıza iddia qaldıranda Əhməd dözə bilməyib el-obamızı düşmən basqınından qorumaq üçün Vətənə geri dönməyi qərara alır. Əhməd Möhbalıyev tank qoşunları üzrə təhsil alan Azərbaycan Ordusunun ilk kadr zabitlərindən biri idi. O, baş leytenant rütbəsində Azərbaycan Milli Ordusunda xidmətə başlayır. Onun hünərinin, rəşadətinin sorağı tez yayılır. Əhməd Möhbalıyev mahir tankçı idi. Tapşırıqdan heç vaxt əliboş qayıtmazdı. Hər dəfə idarə etdiyi tankla düşmənə gözdağı verirdi. O, özünün cəsurluğu, çevikliyi, yüksək fiziki və taktiki hazırlığı ilə şəxsi heyət arasında seçilirdi. Ən çətin əməliyyatlarda öndə gedirdi. Bir sözlə, peşəkar zabit kimi tanınırdı. Əhməd qanlı döyüş meydanlarında səngərlər qazır, kəşfiyyata gedir və ən ağır əməliyyatlarda da iştirak edirdi. O, iki il idi düşmənlə döyüşürdü. Şuşa, Laçın, Qubadlı, Tərtər və Ağdam rayonları uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri göstərirdi. Döyüşçü yoldaşları deyirdilər ki, Əhməd hətta yaralanıb hərbi hospitala düşəndə belə özündən çox onların taleyini düşünürdü. Sağalan kimi cəbhəyə qayıdan Əhməd bu dəfə Ağdamın kəndlərinin - Çullunun, Boyəhmədlinin, Qızıllı-Kəngərlinin, Papravəndin...müdafiəsində düşmənlə ölüm-dirim savaşına girir. 1993-cü il iyunun 26-sı Qızıllı-Kəngərli uğrunda gedən döyüş Əhmədin son döyüşü olur... Ürəyi intiqam hissi ilə döyünən, düşmənə qarşı amansız olan Əhməd şəhidlik zirvəsinə ucalır. Bakıda Şəhidlər xiyabanında dəfn edilir.

Bir qız övladı yadigar qalır.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə doğma torpaqlarımızın erməni işğalçılarından müdafiəsində göstərdiyi şəxsi igidlik və şücaətə, əsgəri və xidməti borcunu şərəflə yerinə yetirdiyinə görə baş leytenant Əhməd Suliddin oğlu Möhbalıyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Vətən daşı olan, ölümün gözünə dik baxan bu dəmir atlı cəngavər yaxşı bilirdi ki, torpağı Vətən edənlər daim qəlblərdə yaşayacaqlar!

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hərbi hissədə birgə tədbir keçirib



*Müdafiə Nazirliyi ilə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin 2018-ci il üçün birgə fəaliyyət planının icrası ilə əlaqədar hərbi hissələrdən birində görüş keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik-leytenant Emin Səfərov və Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Ceyhun Əliyev iştirak edərək şəxsi heyət qarşısında çıxış ediblər.

Milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində ölkə rəhbərliyi tərəfindən görülən tədbirlər, gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında dinin rolu, "Azərbaycanda ənənəvi islam və xarici təsirlər", "Dini radikalizm və islam dünyası" mövzularında çıxış edən C.Əliyev sonda hərbi qulluqçuların çoxsaylı suallarını cavablandırıb.



# Azərbaycan ilə Rusiya siyasi, hərbi, iqtisadi və digər sahələrdə əməkdaşlığa böyük önəm verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 1-də Rusiyaya rəsmi səfəri bir daha onu göstərdi ki, bu iki ölkə siyasi, hərbi, iqtisadi və digər sahələrdə əməkdaşlığa böyük önəm verir. Səfər zamanı Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müzakirələrin aparılması gözlənilən idi. Belə ki, Azərbaycanın xarici siyasət kursunun əsas prioritet istiqaməti Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaqdır.

Dövlətimizin başçısı xarici ölkələrə, xüsusən də, Rusiyaya etdiyi səfərlər çərçivəsində, ilk növbədə, Dağlıq Qarabağ məsələsinə toxunub. Soçi görüşü zamanı da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müzakirələr diqqət mərkəzində olub. Xüsusilə, Rusiya dövlətinin başçısı Vladimir Putinin ölkəsinin ATƏT-in Minsk Qrupu çərçivəsində münaqişənin həllinə hərtərəfli kömək göstərəcəyi barədə fikirlər səsləndirməsi diqqətəlayiqdir. Belə ki, Vladimir Putin də artıq çox gözəl başa düşür ki, işğalçı ölkə olan Ermənistan bu münaqişənin həllinə dair konkret addımlar atmaq istəmir və status-kvonun qorunub saxlanılmasına çalışır. Həmçinin V.Putinin açıqlamasından bunu başa düşə bilərik ki, münaqişənin həlli istiqamətində Rusiya tərəfi səylərini daha da artıracaq və böyük ehtimalla ATƏT-in Minsk Qrupu çərçivəsində Rusiyanın rəhbərliyi ilə münaqişənin həllinə dair tez-tez görüşlər keçiriləcək.

Azərbaycan Prezidenti iki ölkə arasındakı hərbi-texniki əməkdaşlıq əlaqələrinə toxunaraq deyib: "Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcmi, daha doğrusu, Azərbaycan tərəfindən Rusiyadan alınmış hərbi təyinatlı məhsulların dəyəri 5 milyard dolları keçir və bu göstərici artmağa meyillidir. Ona görə ki, Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsini davam etdirir, Rusiya isə dünyada hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla təchizatçısıdır".

Prezidentimizin bu açıqlaması onun göstərir ki, Azərbaycan hər zaman Rusiya ilə hərbi-texniki əməkdaşlığa önəm verir. Yaxın gələcəkdə bu əməkdaşlıq daha da inkişaf etdiriləcək. Xüsusilə, yeni texnikaların və silahların alınması barədə iki ölkə arasında müəyyən razılıqlar əldə oluna bilər. Azərbaycan Prezidenti İlham Əliyev Rusiya dövlətinin başçısı Vladimir Putini ölkəmizə rəsmi səfərə dəvət etdi və ehtimal olunur ki, bu səfər çərçivəsində iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığa dair yeni anlaşmalara imza atıla bilər.

Görüş zamanı ölkələrimiz arasında enerji sahəsində əlaqələrin inkişaf etdirilməsi istiqamətində bir sıra vacib sənədlər imzalanıb. Rusiya və Azərbaycan "Qoşadaş" bloku və Xəzərin dibinin Azərbaycana aid hissəsində Abşeron yarımadasının şimalında neft və qaz potensialının öyrənilməsi ilə birgə məşğul olacaqlarına dair bəyanatla çıxış ediblər. Beləliklə, "Rosneft" və SOCAR arasında müqavilə imzalanıb. Bu ondan xəbər verir ki, Xəzərin hüquqi statusuna dair imzalanmış yeni Konvensiya çərçivəsində gələcəkdə Azərbaycan və Rusiya arasında genişmiqyaslı enerji layihələri həyata keçiriləcək.

Onu da qeyd etmək yerinə düşər ki, yaxın zamanlarda Azərbaycan və Rusiya arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi və ticarət dövriyyəsinin artırılması istiqamətində vacib addımlar atılacaq. Bu baxımdan, qarşılıqlı olaraq yeni investisiyaların yatırılması məsələsinin gündəmə gəlməsi ehtimalı yüksəkdir.

**Ehtiram AŞIRLI,**
**analitik icmalçı**

# Səmti müəyyənetmə yarışı başa çatdı

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2018-ci ilin döyüş hazırlığı planına uyğun olaraq hərbi qulluqçular arasında keçirilən növbəti səmti müəyyənetmə yarışları başa çatdı.*



Avqustun 31-də yarışların nəticələrini elan etmək məqsədilə "N" hərbi hissəsində mükafatlandırma mərasimi keçirildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi Döyüş Hazırlıq İdarəsinin Fiziki Hazırlıq və İdman şöbəsinin rəisi polkovnik Sadiq Paşayev iştirakçılara minnətdarlığını bildirərək keçirilən yarışın əhəmiyyətindən danışdı: "Səmti müəyyənetmə idman növü hərbiyönlü idman növüdür, ona görə də hər il hərbçilər üçün yarışlar təşkil olunur. Dünya səviyyəsində, dünya və Avropa çempionatları, kubok yarışları və birinciliklər keçirilir. Səmti müəyyənetmə idman növü Olimpiya oyunlarının proqramına daxil olunması üçün namizəd növlərdən biridir. Beynəlxalq Səmti Müəyyənetmə İdman Federasiyasına dünyanın 75 ölkəsinin federasiyası daxildir".

Zabit, həmçinin bildirdi ki, hərbi qulluqçuların fiziki cəhətdən möhkəm, güclü olması baxımından mühüm əhəmiyyət kəsb edən yarış hər il davamlı olaraq keçirilir və şəxsi heyətin döyüş ruhunun formalaşmasında böyük rol oynayır. Natiq çıxışının sonunda göstərdikləri fəallığa görə iştirakçılara, yarışın yüksək səviyyədə təşkil olunmasına görə isə hakimlər briqadasına dərin minnətdarlığını bildirdi, qalibləri təbrik etdi.

Çıxışlar başa çatdıqdan sonra yarış iştirakçılarının mükafatlandırma mərasimi başladı. Yarışın yekununa əsasən, Bakı yığma komandası 1031 nəticə hesabı ilə qalib gələrək kuboku qazandı. Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsi 1087 nəticə hesabı ilə ikinci, Beyləqan yığma komandası isə 1274 nəticə hesabı ilə üçüncü yerə layiq görüldülər.

Fərdi şəkildə qadın hərbi qulluqçular arasında əsgər Pərvanə Heydərova birinci, çavuş Məryəm Məhərrəmova ikinci, mayor Cəmilə İrəfiyeva üçüncü, kişi hərbi qulluqçular arasında isə kiçik çavuş Dair Cumartov birinci, kiçik çavuş Şabud Şabudov ikinci, gizir Sahil Həşimov üçüncü oldular.

Yarışın qalibləri fəxri fərmanlarla təltif olundular.

Tədbirin sonunda yarış iştirakçıları xatirə şəkli çəkdirdikdən sonra qaliblərin fikirlərini öyrəndik. Bakı yığma komandasının rəhbəri mayor Şəhadət Nəsibov bildirdi ki, əgər yüksək nəticə qazanmaq istəyirsənsə daim məşq etmək lazımdır. "Məhz məşqlərimizin nəticəsidir ki, səmti müəyyənetmə yarışında komandalar üzrə birinci yerə layiq görüldük. Bu qələbə hər bir komanda üzvünün qələbəsidir. Onların hər biri böyük əziyyət çəkib. Bu hissi mənə yaşatdıqları üçün onlara dərin minnətdarlığımı bildirirəm. Onu da etiraf edim ki, qalib olmağımıza baxmayaraq digər komandalar da çox güclü idilər. İnanıram ki, bu komanda digər yarışlarda da birinciliyi qoruyub saxlayacaqdır".

Polkovnik-leytenant Zal Nəbiyev bildirdi ki, yarış zamanı iştirakçılar arasında fiziki, məntiqi və psixoloji bacarıqlar sınaqdan keçirilir. Burada səmti təyinetmə, diqqəti toparlama və qaçış əsas tələb olunan amillərdir. Səmti müəyyənetmə yarışını xəritəsiz keçirmək mümkün deyil. Səmti hər hansı xəritə ilə müəyyən etmək mümkün olmasına baxmayaraq, səmtləşmə üçün hazırlanmış xüsusi müasir xəritəni istifadə etmək lazımdır. Həmin xəritələr dəqiq, obyektləri təyin etmək və qaçış zamanı oxumaq baxımından asandır. Beləliklə, iştirakçılar idman xəritəsi və kompasın köməyi ilə müəyyən yerdə yerləşən nəzarət məntəqələrini aşkar edirlər. Obyektlərin təsvir olunması üçün xəritədə xüsusi şərti işarələr işlənilir və bu işarələri vurma cədvəli kimi əzbərləmək lazımdır. Ümumilikdə bu idman xəritələri daha detallı olub, ölçüsü təqribən 1 metrdən böyük və ya kiçik olan bütün obyektləri özündə əks etdirir. Şərti işarələr sahəvi, nöqtəvi, xətti və xüsusi olmaqla, obyektlərin təbii rəngləri ilə məntiqi uyğunluq təşkil edir. Səmti müəyyənetmənin idman müsabiqələrində olan məsafə startdan, xüsusi qaydada müəyyən vaxt ərzində keçmək lazım olan nəzarət məntəqələrindən və finişdən ibarətdir".

Beyləqan yığma komandasının rəhbəri mayor Elman Hadiyev səmti müəyyənetmə yarışının təşkil olunmasında zəhməti olan hər kəsə, xüsusilə yuxarı komandanlığa dərin minnətdarlığını bildirdi: "Bu yarışlar hərbi qulluqçularımızın topoqrafik biliklərini və düşünmə qabiliyyətlərini artırır. Səmti müəyyən edənlərdə dəqiqlik, dözümlülük, iradəlilik və bir sıra xüsusiyyətlər əmələ gəlir. Belə bir çətin yarışda komandamız üçüncü yeri qazandı. Komandamıza qalibiyyəti gətirən hər bir iştirakçımıza minnətdarlığımı bildirirəm. İnanırıq ki, məhz elə bu komanda ilə tez bir zamanda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Kəlbəcəri, Laçını, Xankəndini... işğaldan azad edib, orada keçiriləcək növbəti səmti müəyyənetmə yarışlarında da birinciliyi qazanacağıq".

Kişilər arasında fərdi olaraq birinci yerə layiq görülən kiçik çavuş Dair Cumartov bildirdi ki, ordumuzda daim müxtəlif yarışlar və birinciliklər keçirilir. "Belə tədbirlərin əsas məqsədi döyüş hazırlığını yüksəltməkdir. Yarışı birinci yerdə tamamladığım üçün sevincliyəm. Hər qalibiyyətin arxasında ciddi hazırlıq prosesi dayanır. Komandanlıq tərəfindən yarışlara hazırlaşmaq məqsədilə bizim üçün hər cür şərait yaradılmışdı, bircə qalırdı qalib olmaq. Yarış yüksək səviyyədə, gərgin mübarizə şəraitində keçdi. Bütün iştirakçılar qələbə qazanmaq üçün var güclərini ortaya qoydular. Səmti müəyyənetmədə həm fiziki, həm də zehni güc vacibdir. Hər bir kiçik nüansa diqqət yetirmək lazımdır. Kiçik bir səhv qalibiyyətin əldən verilməsi deməkdir."

"Çox sevinirəm ki, səmti müəyyənetmə yarışını mükafatçı kimi başa vurdum. Yarışa güclü idmançılar qatılmışdılar. Ümumilikdə yarış çox gərgin keçdi. Yarışa çox ciddi hazırlaşmışdıq. Düzdür, biz hərbi qulluqçuyuq və bizim əsas məqsədimiz işğal altında olan torpaqlarımızı azad etməkdir.



İnanıram ki, tez bir zamanda Ali Baş Komandanımızın döyüş əmri ilə buna nail olacağıq. Erməni qəsbkarları Azərbaycan Ordusunun tam gücünü görəcək", - deyə kiçik çavuş Şabud Şabudov bildirdi.

Üçüncü yerin sahibi gizir Sahil Həşimov da digər iştirakçılar kimi bizimlə sevinc hisslərini bölüşdü və hər bir iştirakçıya növbəti yarışlarda uğurlar arzuladı.

Qadınlar arasında fərdi şəkildə birinci olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Pərvanə Heydərova qeyd etdi ki, ordumuzda təşkil olunan bu cür yarışlarda qadın hərbi qulluqçularımız da yer alır. "Səmti müəyyənetmə oyunlarında artıq bir neçə ildir ki, iştirak edirəm. Çox sevinirəm ki, keçirilən oyunun qalibiyəm. Orduda xidmət edən gündən fərqlənməyi qarşıma məqsəd qoymuşam. Bu gün ordumuzda nümunəvi xidmətinə görə seçilən qadın hərbi qulluqçularımız çoxdur. Mən bugünkü qalibiyyətimi bütün qadın hərbi qulluqçularımıza hədiyyə edirəm. Arzum idi, birinci olmaq. Oldum. İndi həyata keçməyən bir arzum qalıb: Qarabağımızı işğaldan azad edək, belə oyunlar orada təşkil olunsun. Laçın, Şuşa, Kəlbəcər və digər işğalda olan torpaqlarımızda qalibiyyətimizin sevincini yaşayaq. Tarixi torpaqlarımızda üçrəngli bayrağımızı dalğalandıraq".

Yarışda ikinci yerə layiq görülən çavuş Məryəm Məhərrəmova da söhbətinə yuxarı komandanlığa minnətdarlıqla başladı: "Bu gün əldə etdiyim nailiyyətlərimdə təkcə mənim yox, həm də yuxarı komandanlığın əməyi böyükdür. Hər zaman çalışıram ki, mənə verilən təlimatlara riayət edim. Hərbi xidmətdə özümü tapmışam və bu mənim sevərək gördüyüm işdir. Vətənin dar günündə onun keşiyində dayanmaqdan şərəfli nə ola bilər ki? Onu da qeyd edim ki, yarışlar heç də asan keçmədi. İştirakçılar arasında güclü rəqabət var idi. Bu səbəbdən hər birimiz çətinliklə qarşılaşdıq. Lakin bizə öyrədildiyi kimi çətinliyin üstünə getdim, qaliblərin sırasına daxil oldum. Həyatda ən böyük arzum doğma Qarabağımıza qovuşmaqdır. Həmin vaxta çox az qalıb. Aprel döyüşləri və Günnüt zəfəri bu amala hər gün daha da yaxınlaşdığımızın bariz nümunəsidir".

"Bu yarışda iştirak etmək özü bir uğurdur," - deyə mayor Cəmilə İrəfiyeva söhbətimizə qoşulur. "Yarışda fərqlənən və fərqlənməyən hər bir həmkarıma gələcək fəaliyyətində uğurlar arzu edirəm. Hər bir hərbi qulluqçu bu cür mötəbər turnirdə iştirak edib, fəxri kürsünün ən yüksək pilləsində qərarlaşmaq istəyir. Yarışda birinci yer tuta bilməsəm də, qaliblər sırasındayam. Sevinirəm ki, ordumuzda kifayət qədər təcrübəli hərbi qulluqçularımız var. Hərbçilərimizin uğuru bütövlükdə ordumuzun uğuru deməkdir. Bu gün ordumuzu beynəlxalq turnirlərdə layiqincə təmsil edən kifayət qədər hərbi qulluqçu var. Bizim üzərimizə düşən əsas vəzifə Azərbaycan bayrağını mötəbər turnirlərdən savayı, Qarabağımızda dalğalandırmaqdır. İnanırıq ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə buna tez bir zamanda nail olacağıq".



**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi "Gizir hazırlığı kursu"na qəbul elan edir

*Müdafiə Nazirliyinin hərbi hissələrinə gizirlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan müddətli həqiqi hərbi xidmətini başa vurmuş, tam orta təhsilli, 28 yaşınadək vətəndaşlar sentyabr ayının 3-dən 21-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (SQ TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.*



Müraciət etmiş vətəndaşlar hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir və hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər "Gizir hazırlığı kursu"na qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran vətəndaşlarla 5 (beş) il müddətinə bağlaşma bağlanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

Namizədlər SQ TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surətləri - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- psixoloji, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması barədə arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi).

**Müraciət etmə vaxtı:** 2018-ci il sentyabrın 3-dən 21-dək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

**Telefon:** (012) 538-85-62.

**Qeyd: Məhkumluğu olan hərbi vəzifəlilərin "Gizir hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.**

# Ermənistan ordusunda kriminal hadisələr

Bu il yanvarın 27-də hərbi qulluqçu Ovsep Qriqoryanın xidmət yoldaşı Aşot Çaxlayan tərəfindən öldürülməsi faktının istintaqı zamanı gizlədilən daha bir ölüm hadisəsinin üstü açılıb.

Araşdırılmalar zamanı məlum olub ki, işğalçı orduda pulemyotçu vəzifəsində xidmət edən A.Çaxalyanın daha bir erməni əsgərinin öldürülməsində əli var.

Müstəntiqin hazırladığı məruzədə deyilir ki, A.Çaxalayan Narek adlı daha bir hərbi qulluqçunu da güllələyib. Ancaq sonradan bu faktı döyüş itkisi kimi qələmə verməyə cəhd göstəriblər.

Ölüm faktı ictimaiyyətdən gizlədilsə də, araşdırmalar davam edir.

* * *

İşğal olunmuş Xocavənd rayonunun ərazisində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində daha bir ölüm hadisəsi baş verib.

Məlumatda deyilir ki, Kotayk hərbi komissarlığından 2017-ci ildə hərbi xidmətə çağırılan və artilleriya batareyasında xidmət edən Vanik Gevorkyan adlı hərbi qulluqçu təhqirlərə məruz qalma səbəbindən özünü asaraq intihar edib.

Hadisə barədə hərbi polisə podpolkovnik Arzumanyan soyadlı zabit məlumat verib. Faktla bağlı cinayət işi açılıb, istintaq aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Gənc kursantlar atış çalışmalarını yerinə yetirirlər



*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin birinci kurs kursantları ilkin hərbi hazırlıq çərçivəsində atıcı silahlardan atış çalışmalarını icra edirlər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim sahələrinin rəhbərləri hazırlıq məşqlərinə cəlb olunan heyəti təhlükəsizlik qaydaları, atışın şərtləri və digər tələblərlə tanış ediblər. Gələcək zabitlərin keyfiyyətli hazırlığı məqsədilə keçirilən praktiki atışlardan əlavə gənc kursantlar müxtəlif təlim sahələrində tədris tapşırıqlarını yerinə yetirirlər.

Çalışmaların yekununda gənc kursantlar əldə etdikləri nəticəyə əsasən qiymətləndiriləcəklər.

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ-ın Müdafiə Nazirliyi Ukraynadan 3D radiolokasiya stansiyası alıb



İkitərəfli müqaviləyə əsasən ABŞ-ın Müdafiə Nazirliyi Ukraynadan 3D radiolokasiya stansiyası alıb.

3D radiolokasiyası hava qüvvələrindən müdafiə üçün istifadə ediləcək.

Bu radar stansiyası düşmən tərəfindən aktiv və passiv müdaxilənin intensiv istifadəsi şəraitində orta və aşağı hündürlükdə hava hədəflərinin aşkarlanması, müəyyənləşdirilməsi və izlənməsi üçün nəzərdə tutulub. Stansiya, həmçinin yüksək hündürlükdə uçan hədəfləri aşkar edə bilir.

## Əfqanıstanda "Taliban" hərəkatının iki komandiri öldürülüb



Əfqanıstanın cənub-şərqində yerləşən Zəbul əyalətində aviasiya zərbəsi nəticəsində "Taliban" hərəkatının iki yüksək vəzifəli komandiri öldürülüb.

Bu barədə əyalət polisinin rəisi Məhəmməd Mustafa Mayar bildirib.

ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyaya məxsus qırıcı təyyarə avqustun 31-də Kalat şəhəri ətrafında taliblərin sığınacağını bombalayıb. Aviasiya zərbəsi nəticədə "Taliban" hərəkatının komandirləri Molla Əsəd və Molla Sanqari həyatını itirib, bir neçə nəfər isə yaralanıb.

Qeyd edək ki, ABŞ Əfqanıstanda hərbi əməliyyatlara 2001-ci ildə başlayıb. Sonradan BMT-nin Təhlükəsizlik Şurasının sanksiyalarına əsasən ölkəyə NATO-nun komandanlığı altında beynəlxalq qüvvələr yerləşdirilib. 2014-cü ildə alyans ölkələrinin hərbi kontingenti Əfqanıstandan çıxarılıb və 2015-ci il yanvarın 1-də hərbi əməliyyatlar "Qətiyyətli dəstək" qeyri-döyüş missiyası ilə əvəzlənib.

## Yaponiyanın Müdafiə Nazirliyi öz tarixində ən böyük məbləğdə büdcə sorğusu hazırlayıb



Yaponiya Müdafiə Nazirliyi Şimali Koreyanın ballistik raket proqramı və Çinin dənizdəki fəaliyyəti ilə bağlı təhlükəsizlik vəzifələrini həll etmək məqsədilə rekord məbləğdə büdcə vəsaiti üçün sorğu verməyə hazırlaşır.

Nazirliyin rəhbərliyi avqustun 31-də 2019-cu ilin aprelində başlanacaq növbəti maliyyə ili üçün 5 trilyon 300 milyard yen (təqribən 47 milyard 700 milyon dollar) məbləğində büdcə sorğusu verilməsi barədə qərar qəbul edib. Bu, cari maliyyə ilinin ilkin müdafiə büdcəsini 2,1 faiz üstələyir.

Sorğuda yerüstü "Aegis Ashore" raketə qarşı müdafiə sistemləri komplekslərinin maliyyələşdirilməsi əsas yer tutur. Nazirlik 2019-cu maliyyə ilindən başlayaraq həmin kompleksdən iki ədəd alınmasını planlaşdırır.

Sorğuda digər dövlətlərin kosmik məkanın hərbiləşdirilməsi məqsədilə yeni texnologiyalara investisiyaları artırması nəzərə alınaraq, yerətrafı orbitdə izləyici radar sistemlərinin maliyyələşdirilməsi də planlaşdırılır.

## Rusiya Ermənistanın sabiq Müdafiə nazirini Yerevana verməyəcək



Yerevan 2008-ci il 1 mart hadisələri ilə bağlı MDB-nin dövlətlərarası axtarışına daxil edilən Ermənistanın sabiq Müdafiə naziri Mikael Arutyunyanın ölkəyə təhvil verilməsi barədə Moskvaya rəsmi müraciət ünvanlayıb.

Hazırda müraciətlə bağlı məsələ Rusiyanın hüquq mühafizə orqanlarında müzakirə olunur. Mikael Arutyunyan 2002-ci ildən Rusiya vətəndaşı olduğu üçün ekstradisiyadan imtina olunması barədə ilkin qərar qəbul edilib.

RF konstitusiyasına əsasən, Rusiya cinayət məsuliyyətinə cəlb edilməsi üçün öz vətəndaşlarını xarici ölkələrə təhvil vermir.

**AZƏRTAC-ın materialları əsasında**

*Könlüm şeir istəyir*

# Söz də Vətən üçündür...



*Nəsrdən fərqli olaraq şeir duyğular üçündü. Duyğularını yazan şair oxucunun duyğularını tərpədir, onun axarını şeirin mahiyyətinə istiqamətləndirir. Şeir həm də düşüncələr üçündü. Şair mahiyyət etibarilə düşüncələri xalqın, dövlətin heysiyyət üzərliyi edə bilirsə, oxucunun yaşam fəlsəfəsinin milli-xəlqi ruhun səviyyəsində, formalaşmasında vasitə (vəsilə) olursa, "su kimi lətafətli olan söz" (N.Gəncəvi) qüdrətli sözdü. Sənə elə gəlir ki, misralarla, bəndlərlə, bütövlükdə şeirlə ifadə edilən bu qüdrətdə ilahilik görürsən.*

*Zaur Bağırov hərbçidir, gizirdir, şairdir, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Sülhməramlı qüvvələrin tərkibində Əfqanıstanda da xidmət edib. Əfqanıstanlı aylar yaradıcılığında da öz əksini tapıb; Zaur Bağırov - Zaur Sahil kimsəni təkrar etmədən yaşadıqları duyğuları şeirə gətirə bilir. Zaur Sahilin yaradıcılığında vətənpərvərlik ruhu Dan ulduzu kimi görünür; işıqlı düşüncələrlə, ürəyinin döyüntülərindən dikələn istəklə, arzuyla, murazla işıqlı poetik söz deyə bilir, dediklərinin əksəriyyəti oxucunun düşüncələrinin ağ işığına dönür. "Əsgərlərim döyüş əmri gözləyir" şeirində əsgər obrazı Azərbaycan əsgərinin ümumiləşdirilmiş obrazıdır. Torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyən əsgərlərin döyüş əzminin, qələbə ruhunun ifadəsidi bu şeir. O əzmi, o ruhu hər gün görən şair deyir ki, əsgərlərimizin son dayanacağı Şuşa olacaq. ("Ünvanımız Şuşadı!") Bu və bu kimi şeirlər oxucunu Böyük Qələbəyə kökləmək qüdrətindədi...*

*Səmimi yaradıcılığın boyu həmişə aydınlığıyla görünür, Zaur Sahil səmimi yazır. "Mehrabı eşq olan uca göylərdən" (N.Gəncəvi) - təbiətdən yazanda da səmimidi, göylərə mehrab olan eşqdən-sevgidən yazanda da, göylərimizə-yerlərimizə beşik bildiyimiz Vətəndən, torpaqdan yazanda da...*

*Gizir Zaur Bağırov Vətənə xidmət edir. Şair Zaur Sahilin şeirləri Vətən üçündü...*

**"Azərbaycan Ordusu"**

### Əsgərlərim döyüş əmri gözləyir

Əsgərlərim silah geyib çiyninə,
Qələbəyə ünvanlanıb addımı.
Müraciət "Komandir"di...
Heç biri unutmaz ki, soyadımı, adımı.

Əsgərlərim - qələbənin təşnəsi,
Arzuları saralmaz ki, saralmaz.
Təbiətin axşam çağı gəlibdi,
Bu gecənin ağ işığı qaralmaz.

Əsgərlərim döyüş əmri gözləyir,
Lələtəpə mayakımız olubdu.
Apreldəki döyüş bizi gözləyir,
Səbrimizin kasaları dolubdu...

### Bizim hərbi hissə

Bizim hərbi hissə dəniz kimidir,
Binalar gəmini bəzər, nə yaxşı.
Mavi düzənlikdir sıra meydanı,
Dəniz də adaya bənzər, nə yaxşı.

Bizim hərbi hissə dəniz kimidir,
Dəniz sığal çəkir duyğularıma.
Qarışır qəlbimin döyüntüləri,
Sıra yerişinin sədalarına.

Bizim hərbi hissə dəniz kimidir,
Əsgər baxışıdı coşan fırtına.
Əsgər qəzəbinin ifadəsidi,
Hərdən sahilini aşan fırtına...

### Ünvanımız Şuşadı!..

Bu - biz,
Bu da səngər...
Burda hər əsgər
Qürurda elə bil bir uca dağdır.
Hər gün atdığı güllələrin
məsafəsi qədər yol gedir,
Şuşaya çatanda dayanacaqdır...

### Ana

Günəş olub başın üstə saçaram,
Çiçək kimi baxışlarında açaram,
Uşaqlaşıb ağuşuna qaçaram,
Noolar qayıt, noolar qayıt, ay ana.

Bu ayrılıq bizə yağı qurğusu,
Ağlıma da gəlməzdi heç, doğrusu...
Nə ağırmış yetimliyin ağrısı,
Noolar qayıt, noolar qayıt, ay ana.

İstəyirəm ağıryeriş gələsən,
Zaur sənsiz nələr çəkir biləsən...
Göz yaşımı kirpiyinlə siləsən,
Noolar qayıt, noolar qayıt, ay ana.

### Yollar... Yollar...

Körpə-körpə arzularım
Ürəyimdə qaldı, ana.
Sən məzara gedən gündən
Dərdin, qəmin - ayrılığın
İçimdə yurd saldı, ana.

Sənsizliyin ağırlığı
Çəkilməyən yük kimidi.
Sənlə mənim aramdakı
Yollar daha tük kimidi...

### Getmişəm

Bu qədər dərdləri sinəmə çəkmə,
Bir gün görərsən ki, ölüb getmişəm.
Həsrətin gözündən süzüldüyündən,
Səni gözlərimdən silib getmişəm.

Doğulub bu qara bəxtim ölümdən,
Dikəlib dünyaya baxdım ölümdən...
Yox, elə bilmə ki, qorxdum ölümdən,
Ölümün gözünə gülüb getmişəm.

Mən məni bilmişəm məndən baxalı,
Mən sənə köçmüşəm məndən çıxalı...
Mənim qəhər yüküm məndən bahalı,
Bilməzsən, nə çəkib, bilib getmişəm...

### 20 Yanvar günü

Qanlı şənbə...
Şəhidlərin başı üstə
Başdaşıtək dayanmışdı Azərbaycan.
Gözlərindən su yerinə qan axırdı,
Qan rənginə boyanmışdı Azərbaycan.

Əsarətin zəncirini qırmaq üçün,
Azadlığın naxışını vurmaq üçün,
Yeni dövran, yeni dünya qurmaq üçün
Yuxusundan oyanmışdı Azərbaycan.
Yaraları gizildədi sinəsində,
Min illərin səsi vardı nəfəsində...
Azadlığa gedən yolun gur səsindən
həsrətini soyunmuşdu Azərbaycan.

### Belə görürəm həyatı

Yollar uzun deyil ki,
Addımlar uzundu.
Addımlar uzun deyil ki,
Adamlar uzundu.
Addımların təzəsi,
köhnəsi,
boyatı...
Boyumun çatdığı qədər
görürəm həyatı...

### Bir arzu tutdum

Çəkdim gözlərimə səni bu gecə,
Payızın saralan havalarıyla.
Sənin sevincinlə, mənim qəmimin,
Dil tapa bilməyən davalarıyla.

Səni itirməyin qorxusu yoxdu
Səni tapmağımın qorxusu qədər.
Mənim gözlərimin yuxusu yoxdu,
Sənin gözlərinin yuxusu qədər.

Gecənin içində gündüzü tapdım,
Hardasa gözümün yaşından keçir.
Yenə ürəyimdə bir arzu tutdum,
Sənin ürəyinin başından keçir.

# İdman

## "Qəbələ"nin iki karateçisi İsveçrədə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb



"Qəbələ" idman klubunun karateçiləri növbəti uğura imza atıblar. Azərbaycan milli komandasının heyətində yer alan Rafael Ağayev və Rafiz Həsənov İsveçrənin Bazel şəhərində keçirilən IX "Open Masters-2018" turnirində fərqləniblər.

R.Ağayev 75, R.Həsənov isə 67 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. İdmançılarımız yarışın qalibi kimi kubokla təltif olunublar.

Xatırladaq ki, Azərbaycan yığması turnirdə, ümumilikdə 11 mükafata yiyələnib. Bunlardan dördü 1-ci, dördü 2-ci, üçü isə 3-cü yer üçün təqdim olunub.

## Azərbaycan idmançısı atçılıq üzrə beynəlxalq turnirdə birinci yerin və kubokun sahibi olub



Gürcüstanın paytaxtı Tbilisidə keçirilmiş atçılığın konkur növü üzrə "CSI1*-W" kateqoriyalı beynəlxalq turnir başa çatıb.

Turnirin final mərhələsində maneələrin hündürlüyü 140-160 santimetr olan yarışda idmançımız Seyid Musayev "Concorde 57" ləqəbli atla birinci yerin və kubokun sahibi olub.

Digər təmsilçimiz Yahor Morotski isə "Astrello" ləqəbli atla ikinci yeri qazanıb. Gürcüstan idmançısı Şalva Qaçeçiladze isə üçüncü yerdə qərarlaşıb.

## Yeniyetmə sərbəst güləşçilərimiz İranda bürünc medala sahib olublar



İranın Arak şəhərində yeniyetmə sərbəst güləşçilər arasında "Yadigar İmam Cup" beynəlxalq turniri keçirilib.

9 komandanın iki qrupda mübarizə apardığı yarışda məşqçilər Vahid Məmmədov və Abil İbrahimovun rəhbərliyi altında Murad Haqverdiyev (45 kq), Kənan Heybətov (48 kq), Riad Aslanov, Royal Kazımzadə (hər ikisi 51 kq), Əbülfəz Nəsirov (55 kq), Sabir Cəfərov (60 kq), Babək Hüseynli (65 kq), Əşrəf Aşırov (71 kq), Abdulcalil Şabanov (80 kq), Saqadulla Ağayev, Fuad Mayılov (hər ikisi 92 kq) və İslam Abuyevdən (110 kq) ibarət kollektiv ölkəmizi təmsil edib.

Millimiz qrupda Rusiyaya (2:8) uduzsa da, İraq (10:0) və İran-3 (8:2) komandalarına qalib gəlib və ikinci yeri tutub. Komandamız İran-2-ni (7:3) də məğlub edərək xatirə turnirinin bürünc medalını qazanıb. Finalda Rusiyanı üstələyən İran-1 kubokun sahibi olub.

## Makedoniyada şahmat kompozisiyalarının həlli üzrə dünya çempionatı keçirilir

Sentyabrın 1-dən 7-dək Makedoniya Respublikasının Oxrid şəhərində Şahmat Kompozisiyaları Beynəlxalq Federasiyasının (WFCC) 62-ci konqresi keçirilir. Konqres çərçivəsində şahmat kompozisiyalarının həlli üzrə 42-ci dünya çempionatına start verilib.

Şahmat kompozisiyalarının həlli üzrə dünya forumunda Azərbaycanı idman ustası Kənan Vəlixanov təmsil edir. Turnirdə 30 ölkədən 100 şahmatçı iştirak edir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 536
Nüsxə 3525